**LƏTAFƏT ƏLƏKBƏROVA**
***Bakı Dövlət Universiteti***

## SMOMPK MƏCMUƏSİNDƏ DASTAN SÜJETLƏRİ İLƏ SƏSLƏŞƏN NAĞILLAR

Azərbaycan folklorunun toplanması və nəşrində mühüm mərhələ olan SMOMPK məcmuəsinin səhifələrində Azərbaycan nağılları da çap olunmuşdur. Burada «Məlikməmməd», «Qızıl balıq», «Gül və Sineyviz», «Rəngli balıq» və s. kimi nağıllar nəşr edilmişdir. Bunlarla yanaşı «Şah İsmayıl», «Aşıq Qərib», «Əsli-Kərəm», «Novruz», «Koroğlu», «Alı xan» kimi nağıllara da rast gəlirik. Bu nağıllar dastan süjetləri ilə səsləşsə də, onlara dastan demək düzgün olmazdı. Çünki ənənəvi dastan strukturu burada gözlənilməmişdir. Ona görə biz həmin mətnləri tədqiqatmızda nağıl adlandıracağıq. Qeyd etmək istərdik ki, məcmuənin müxtəlif buraxılışlarında haqqında bəhs edəcəyimiz nağılların bir qisminin əsas məzmunu təqdim edilmiş, həmçinin şeir parçaları da verilmişdir.

1890-cı ildə SMOMPK-un IX buraxılışında Mirzə Vəlizadə tərəfindən
toplanmış "Предание о разбойнике Кер-оглу" nəşr edilmişdir. Çıxarışda qeyd edilmişdir ki, bu rəvayət xalqın dilindən Tiflis qəzasının Qaracalar kəndində yazıya alınmışdır.

Əvvəldə dastanın mətni xeyli ixtisarla verilir. Sonra isə dastanlardan şeir parçaları təqdim olunur. Yazının başlığında nəzərə çarpan təhrifçilik burada yenə özünü göstərir. Qəhrəmanlıq nümunəsi olan Koroğlu adi quldur kimi qələmə verilir. Sonrakı parçalardan açıq-aşkar Koroğlunun mərdliyi, igidliyi gözə çarpır. Məsələn: «Число разбойников Кероглы росло; караванам и купцам не было покою от нападений Кероглы; он грабил деревни, держал в страхе самого хана и беспокоил целое его ханство: ханские отряды не раз попадали в засаду и были побеждаемы шайкою Кероглы» (2,122). Şeirdə isə:

Призови Единого Бога и садись на Гырата;
Воспылай мужеством пред врагом и помни честь свою;

Стань с ним лицом к лицу, грудь о грудь:

Храбрый должен получать раны в лицо! (2,123).

Ötən əsrin əvvəllərində toplanan bu variantla sonralar M.H.Təhmasib tərəfindən nəşr edilən «Koroğlu» arasında mövcud olan fərqlər də diqqəti cəlb edir:

Dastanda olan ikinci at – Dürat burada qeyd olunmur və ümumilikdə bu atların mifoloji mənşəyi barədə danışılmır. Koroğlunun məskəninin adı Çənlibel yox, Çamlu-daq kimi verilir. Onun Çamlu-dağa (Çənlibelə) çəkilməsi isə Həsən xan tərəfindən Qıratın oğurlanması cəhdi ilə əlaqələndirilir. Eyvazın Koroğlunun götürülmə oğlu olması faktı qeyd edilmir, Nigar xanım isə guya Eyvazın köməkliyi ilə oğurlanıb. Koroğlunun ifa etdiyi nəğmələrin xalq tərəfindən yarandığı iddia olunur və bu fikir nəğmələrdə bütöv bir xalqın müxtəlif görüşlərinin əks olunması ilə təsdiqlənir. Koroğlunun çalğı aləti isə saz yox, balalaykadır. Bizim oxuduğumuz «Koroğlu»dan fərqli olaraq, burada Allaha, Əliyə müraciətlər də vardır. Şeirlərin bir qismi Koroğlunun öz-özünə verdiyi suallardan ibarətdir. Burada onun dəlilərinin sayı 7777 yerinə 40 kimi təqdim olunur, Misri qılınc Dəməşq qılıncı adlanır, Koroğlu özü isə başından yekə danışan, qəddar, qaniçən bir şəxs kimi təsvir edilir.

«Koroğlu» eposundakı mifoloji elementlər üzərində bir qədər ətraflı dayanmaq istərdik. Çünki prof. İ.Abbaslı qeyd edir ki, Koroğlunu Qıratsız, Misri Qılıncsız, Qıratı, Misri qılıncı Koroğlusuz təsəvvür etmək çətindir. Və bütün bunların etimoloji mənaları da «Koroğlu»nun əski köklərə söykəndiyini təsdiq edir (7,s.13-14).

Dastanı geniş araşdırmaya cəlb edən AMEA-nın m.ü., prof. A.M.Nəbiyev Koroğlunun iki qardaşının – qılınc və at, iki bacısının isə – Qoşadağ olduğunu göstərir. Və qeyd edir ki, «Qırat – «qırmızıyla» - yəni odla bağlıdır. Eyni zamanda alim Qırat dərya madyanından törədiyinə görə onun su kultu ilə bağlı olduğunu da istisna etmir. Misri qılınca gəldikdə isə A.Nəbiyev göstərir ki, özbəklərin Goroğlusunun «kəskin», «polad», «almaz» və «İsfahan» epitetli qılıncı varmış. O qeyd edir ki, orta əsrlərin əvvəlində Misirdə təzə polad icad olunmuş və ondan sərkərdələr üçün qılınc hazırlanmışdır. Koroğlunun Misri qılıncı da bu qəbildəndir. Xalq ona sonralar mifoloji və kosmoloji xüsusiyyətlər vermişdir. Çənlibeli isə alim üsyançıların azad məkanı adlandırmışdır (10, s.253-258).

Prof. E.İ.Əzizov Qıratın etimologiyasından bəhs edərkən onu – «Bozat» saymış, Koroğlu Çənlibel, Misri qılınc haqqında söhbət açmış, onların hər birini səma cişimləri ilə bağlamışdır (16, s.70-86).

«Misri qılınc» ifadəsinin «Koroğlu» dastanının yaranmasından xeyli əvvəl yaşamış Nəsiminin şeirlərində olduğunu qeyd edən M.Adilov Misri qılıncı Mitra allahı-Mitr-Mehrlə bağlamışdır (17, s.117-119). Prof. M.H.Təhmasib Qıratı odla, Misri qılıncı Mitra ilə əlaqələndirmişdir.

A.M.Nəbiyev hələ ötən əsrin 70-ci illərində folklor ekspedisiyaları zamanı «Koroğlu»nun Dərbənd variantını toplamışdır. Bu haqda o, 1970-ci ildə «Elm və həyat» jurnalının 6-cı sayında məlumat vermişdir (15). Həmin variantı alim 2003-cü ildə çap etdirmişdir (13). Bu variantın maraqlı cəhətlərindən biri də odur ki, burada «Misri qılıncın oğurlanması» adlanan qol vardır. Artıq bu, Misri qılıncı əfsanəvi Qırat səviyyəsinə yüksəldən bir faktdır.

Gördüyümüz kimi, heç bir mətndə, heç bir elmi araşdırmada biz «Dəməşq qılıncı» ifadəsinə rast gəlmirik.

Qeyd etmək istərdik ki, SMOMPK-un XXIV buraxılışında Q.Şaişmelovun yazıya aldığı «Koroğlu»nun gürcü variantı, XXXVIII buraxılışında isə A.A.Volodinin topladığı türkmən variantı çap olunmuşdur. Həmin variantları türkmən alimi B.A.Karrıyev «Эпические сказания о Кер-оглы у тюрко-язычных народов» adlı monoqrafiyasında tədqiqata cəlb etmişdir (9).

Bir faktı da qeyd etməyi lazım bilirik ki, SMOMPK məcmuəsində nəşr olunan «Koroğlu»nun Azərbaycan variantını sonradan V.Xuluflu 1927-ci və 1929-cu illərdəki yeni nəşrlərinə daxil etmişdir. 1929-cu ilin nəşrini 70 il sonra prof. A.M.Nəbiyev və Y.İsmayılova müəyyən qeyd və şərhlərlə çap etdirmişlər (12). 1927-ci ilin nəşrini isə A.Nəbiyev və M.Məmmədov 2007-ci ildə yeni əlifbada oxuculara təqdim etmişlər (14).

Prof. P.Əfəndiyev SMOMPK-da çap olunmuş «Koroğlu» haqqında söz açaraq, Koroğlu nəğmələrinin mənşəyi, onların xalqa məxsus olduğu fikrini xüsusi vurğulayır (11,s.53-62).

Tədqiqatçı V.Qacarov «Koroğlu»nun SMOMPK-dakı nəşrlərinin həmin eposun rusca öyrənilmə və populyarlaşma tarixində kökündən dönüş yaratdığını hesab edir (29, s.37-40).

SMOMPK məcmuəsinin XIII buraxılışında «Aşıq Qərib» adlı nağıl çap olunmuşdur. Bu nağılı Şamaxının Tircan kəndində aşıq Orucdan

M.Mahmudbəyov yazıya almışdır. Həmin mətni Türkiyədə mühacirətdə yaşayan görkəmli Azərbaycan alimi Ə.Cəfəroğlu 1934-cü ildə «Azərbaycan Yurd Bilgisi» dərgisində təkrar nəşr etmişdir. Ə.Cəfəroğlu beləliklə, mətni çap edərkən onun dilinə, orijinallığına qətiyyən müdaxilə etməmiş və mətnlə bağlı bütün izah, qeyd və şərhlərini ayrıca göstərmişdir (18, s.50).

A.M.Nəbiyev «Aşıq Qərib»dən bəhs edərkən həmin dastanın iki «Qafqaz-Anadolu» və Türküstan versiyalarının olduğunu göstərir. Bu versiyaların ilk variantlarından birinin M.Y.Lermontovun 1838-ci ildə yazdığı eyni adlı poemasının əsasını təşkil etdiyini, ikincisinin isə haqqında bəhs etdiyimiz mətn olduğunu vurğulayır (6, s.445).

30 səhifəlik həmin mətn «Ашик Кериб» (сказка)» başlığı altında verilmişdir. Eyni adlı dastanın «Azərbaycan məhəbbət dastanları» (28) kitabındakı nəşri ilə müqayisədə bəzi fərqlər nəzərə çarpır. Belə ki, burada Qəribin atasının adı Əhməd, anasının adı Banu əvəzinə Xanı, bacısının adı Şəhrəbanudur. Qardaşı Heydərin isə adı heç çəkilmir. Şahsənəm Xacə Sənanın yox, Bəhram bəyin qızıdır. Qəribə anası və bacısı ilə Tiflisə gedib çatmaqda Manaf bəy adlı bir bəzirgan kömək edir. Dastanın sonrakı nəşrlərində belə bir obraz var. SMOMPK-dakı nəşrdə nə qarı, nə də Dəli Mahmud obrazları var. Amma bəzirganbaşı Xoca Əhməd obrazı xırda detallarına qədər olduğu kimi verilmişdir (3, s.199-204).

Bu nəşrin bir sıra orijinal və diqqətəlayiq özünəməxsusluqları vardır. Məsələn, dörd səhifəlik qısa təhkiyədən sonra 87 nəğmə verilmişdir. Burada qəhrəmanların lirik hissləri, çəkdikləri iztirablar ifadə olunmuşdur (3, s.176-214). Sonra isə bunların məzmunu əski əlifba ilə dərc edilmişdir (3, 214-230). Həmin nəğmələrdə bir çox spesifik sözlər verilmişdir və hər bir səhifənin ətəyində onların izahları vardır. Burada ilk dəfə olaraq saz, Qədr gecəsi, Xıdır İlyas, ərənlər, tümən, haqq aşiqi, Rüstəm Zal, kamança, kaf və nun (ərəb hərfləri – L.Ə.), Züleyxa, mağar, xına kimi söz və anlayışların, şəxs adlarının izahı verilmişdir. «Aşıq Qərib»in SMOMPK-dakı nəşri tədqiqatçı S.Yaqubova tərəfindən geniş tədqiq olunmuşdur. Dastandakı obrazlar sistemindən danışarkən o, ilk növbədə Qəribin çılğın, azadlıqsevər, incə qəlbli, daim öz idealı – sevgisi uğrunda vuruşan olduğunu qeyd edir (19, s.11-117). Bu dastanı yaradan xalqın məhəbbəti, rəğbəti də bütünlüklə Qəribin tərəfindədir. Ona yalançılıq, məkr və hiylə tamamilə yaddır. O, insanlara olan münasibə-

tində tamamilə saf və pakdır. Dastanın qadın obrazlarından danışarkən S.Yaqubova qeyd edir ki, bütün hüquqsuzluğuna baxmayaraq Şahsənəm özünəməxsus tərzdə azadlığını qoruyur. O, anasına Qəribi sevdiyini elan edir, hətta nişanlısı Şahvələdin hədiyyələrlə göndərdiyi qarını evindən qovur (19, s.120-121).

Qəribin anası və bacısının obrazları da diqqətçəkəndir. Bu genişürəkli, ədalətsevər qadınlar Qəribi dərindən istəyir, onun dərdinə şərik olurlar, ona hər cür kömək etməyə hazırdırlar (19, s.122-123). Öz sadəliyi, ürəyiaçıqlığı, səxavəti və özgənin dərdinə şərik olması ilə seçilən bəzirgan Əhməd obrazı da maraqlıdır (19, s.123).

Adı çəkilən araşdırıcı həmçinin dastanın SMOMPK variantının poetikası, həmin dastanı ifa edən aşığın şəxsiyyəti, bu əsərin yarandığı tarixi epoxa, həmin vaxt kəsimində ictimai-siyasi vəziyyət, Azərbaycanda mövcud olan ziddiyyətlər və eləcə də rus şair və yazıçısı M.Y.Lermontovun bu süjet əsasında yazdığı povest üzərində xeyli dayanır (19, s.107-108; 158-178).

SMOMPK-dakı «Aşıq Qərib»in poetik dili də zəngindir. Belə ki, bir çox müraciətlər «gül üzlü» sözləri ilə başlamış və dərhal «qurbanın olum» yalvarışı da işlənmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, M.Mahmudbəyov bu dastanı çap edərkən bir çox sözlərə izah vermişdir. Eləcə də «qurbanın olum» yalvarışını da «başına döndüyüm»lə birgə izah edərkən qurban vermə adəti ilə bağlı olduğunu göstərmişdir (3, s.177). Müsəlman aləmində alimlərin coğrafi baxışları (3, s.192), Şərqdə al-göy rənglərin ən dəbdə olması və s. kimi digər izahlar vermişdir. Qəribin artıq Hələbdən qayıtması, gəlib Tiflisə çıxması zamanı anası və bacısına özünü tanıtmaq məqsədilə işlətdiyi söz oyununu da M.Mahmudbəyov xüsusilə qeyd edir.

«Aşıq Qərib» nağılında Xıdır İlyas böyük ehtiramla təsvir edilmişdir. Qərib Tiflisə qayıdan zaman Xıdır İlyasın onu qısa vaxtda Hələbdən Ərzuruma, Qarsa və sonra Tiflisə gətirdiyini təsvir edərkən M.Mahmudbəyov göstərir ki, Aşıq Orucdan topladığı nağıl Lermontovun yazdığı variantla eyniyyət təşkil edir.

«Aşıq Qərib» dastanının mərkəzində «ərin arvadının toyuna gəlib çıxması» səyyar süjeti dayanır. Rus alimi professor N.F.Sumtsov «Ər öz arvadının toyunda» adlı məqaləsində həmin mövzunun nağıl, bılina, poema və s. şəkillərdə bir çox dünya xalqları içərisində işlənməsindən danışır və bu əsər-

lərlə rus xalqının həmin süjet əsasında yaratdığı «Dobrınya Nikitiç» bılinası arasında olan oxşar və fərqli cəhətləri göstərirdi (8, s.387). Bildiyimiz kimi, bu süjet «Bamsı Beyrəyin boyu» ilə səsləşir. Mahmudbəyovun çap etdirdiyi «Aşıq Qərib» nağılında «Kitabi-Dədə Qorqud»la səsləşən digər bir motiv də var. Xıdır İlyas Qəribi az vaxtda Tiflisə gətirib çıxaranda Qərib deyir ki, mənim bir gün ərzində Hələbdən Tiflisə gəlib çıxmağıma heç kəs inanmaz. Xıdır İlyas ona cavabında deyir: «atımın dırnağının altından bir qarış torpaq götürüb, elində-obanda 7 il kor olmuş qarının gözünə sürtsən, qarının gözü açılar» (3, s.206-207). Göründüyü kimi, bu motiv də Bamsı Beyrəyin atası Bəy Buranın gözünə barmağından çıxan qanı sürtərək onu sağaltmasına bənzəyir.

SMOMPK məcmuəsinin V buraxılışında erməni nağmələri adı altında çap edilən «Sənəm»in nəğməsi isə «Aşıq Qərib»dəki Şahsənəmin toy günündə Qəribi deyib-çağırması ilə səsləşir (1, s.86-87).

Məcmuənin XIII buraxılışında erməni nağılı kimi çap olunan «Aşıq Kərəm» mətni də var. Həmin mətni Kasapet kənd məktəbinin müəllimi Q.İzraelov yazıya almışdır. Mətnlə tanış olarkən məlum olur ki, «Əsli və Kərəm» adlı dastanla bu nağılın məzmunu eynidir. Lakin aşağıdakı fərqlər diqqəti çəkir. Qeyd etdiyimiz kimi nağıl «Aşıq Kərəm» adlanır. Tədqiqatçıların fikrinə görə, «rus ədəbiyyatında Kərəm adına hələ XIX əsrin əvvəllərində rast gəlinir. M.Y.Lermontovun Azərbaycan xalq dastanı əsasında yazdığı məşhur «Aşıq Qərib» nağılının əlyazmasında və ilk çapında baş qəhrəmanın adı tez-tez Kərəmlə əvəz olunur. Lermontovun tədqiqatçıları şairin hələ o zaman «Əsli və Kərəm» dastanı ilə tanış olduğu fikrinə gəlirlər ki, bu da ağlabatandır» (20,s.159). Nağılın məzmunundan bəlli olur ki, bir şəhərdə erməni keşişi və tatar (Azərbaycan – L.Ə.) mollası qonşuluqda yaşayırmışlar. Hər ikisinin övladı yox idi. Onlar mollanın təklifi ilə Allaha yalvarırlar. Keşişin qızı, mollanın isə oğlu olur. Burada Mahmud və Məryəm adları çəkilmir, uşaqların 7 günü tamam olan kimi, qıza «Əsli», oğlana – «Kərəm» adı verilir (3, s.126).

İllər keçir, uşaqlar dostlaşırlar. Molla keşişə müraciət edir ki, övladları evlənsinlər. Lakin keşiş arvadının məsləhətilə digər şəhərə köçür.

Prof. A.M.Nəbiyev məhəbbət dastanlarını tədqiq edərkən «Əsli-Kərəm» üzərində də xüsusilə dayanmışdır. Alimin fikrinə görə, «...məhəbbət dastanlarının bir çoxunda sevgi macərası beşikkərtmə, göbəkkəsmə və

dünyaya gəlməzdən əvvəl bir-birinə adaxlanan gənclər arasında baş verir. Həmin dastanlardakı məhəbbət də adi çərçivədə davam edir...Bəzən verilən vəd pozulur...Din və təriqət müxtəlifliyi nəticəsində sevənlərin qovuşması baş tutmur... Şərti pozan tərəf xoşbəxtliyə nə qədər yaxın görünsə də, bu məqsəd həyata keçmir. Bu tipli dastanlarda baş verən bütün süjetlər öz inkişafında adi məhəbbət hadisəsi çərçivəsindən kənara çıxmır» (6, s.386).

«Əsli-Kərəm»in türkmən variantı əsasında tədqiqat işi aparan türkmən tədqiqatçısı Amangül Durduyeva erməni variantını da axtarmağa çalışmışdır. O, SMOMPK-dakı nəşri əldə edir və burada Azərbaycan nəşrlərində olmayan «molla» sözünü tapır, bunu variant kimi qəbul edir. Həmin tədqiqatçı variantın özünəməxsus xüsusiyyətlərini unudur və ona görə də yanlış fikirdədir (21, s.34).

Daha sonra həmin nağılda bəhs olunur ki, Kərəm əlinə saz alıb (burada yenə balalayka yazılmışdır) Əslini axtarmağa gedir. Çox axtardıqdan sonra gəlib keşişin evinə çıxır. Həmin şəhərdə keşişin arvadı loğmanlıq edir, xəstə dişləri çəkirmiş. Kərəm onların yaşadığı evə gəlib çıxır, bir yerə uzanır, Əslinin anası onun dişlərini bir-bir çəkir. Əsli isə anasına kömək məqsədilə çıraq tutur. Keşişin arvadı bir-bir dişləri çəkib qurtarır, Kərəm isə Əsliyə tamaşa edir. Sonra dişlərini yerinə qoyur, saz çalır, dişlər yerinə möhkəm oturur (3, s.127-128).

Kərəm özünü tanıtmaq üçün saz çalıb oxuyur, sinəsi eşqdən alovlanıb yanır, ağzından qığılcımlar çıxır. Qığılcım ayağına düşür, Kərəm başlayır yanmağa, Əsli əlinə bir kuzə alıb yanğını söndürmək istəyir. Fəqət, kuzənin içində su əvəzinə neft imiş. Kərəm ilə Əsli bir yerdə yanırlar, lakin külləri birləşir. (3, s.128).

Gördüyümüz kimi, burada Kərəm ilə Əslinin toyundan, keşişin tilsimindən söhbət açılmır. Keşişin özündən çox onun arvadı bu iki gəncə mane olur.

Azərbaycan folkloru nümunələri, xüsusilə dastanlar arasında bir çox ustad aşıqlarla bağlı əsərlər vardır. Məsələn, «Qurbani», «Abbas və Gülgəz», «Aşıq və Yaxşı», «Valeh və Zərnigar» adlı dastanlar. Bunların heç birisi, nağıl şəklində də olsa SMOMPK-da çap olunmamışdır. Yalnız məcmuənin XIX buraxılışında M.Mahmudbəyovun yenə də Şamaxının Tircan kəndində

yaşayan Aşıq Orucdan yazıya alıb çap etdirdiyi «Molla Qasım» nağılı istisnadır.

Bildiyimiz kimi, SMOMPK məcmuəsi Azərbaycan folklorunun toplanması və nəşrində ilk təşəbbüs idi. Dəfələrlə qeyd etdiyimiz kimi, burada çox vaxt müəyyən yanlışlıqlara yol verilirdi. XIX buraxılışda Mahmudbəy Mahmudbəyovun yol verdiyi yanlışlıq xeyli müddət müxtəlif dövrlərdə və mühitlərdə yaşayıb yaratmış iki Azərbaycan aşığının Molla Qasım və Xəstə Qasımın qarışdırılmasına gətirib çıxarmışdır.

Prof. A.M.Nəbiyev Azərbaycan aşıq sənətini, onun ayrı-ayrı məktəblərini tədqiq edərkən hər iki sənətkarın ədəbi portretini yaratmışdır. Molla Qasım XIII-XIV əsrlərdə Şirvanda yaşayıb-yaratmışdır, demək olar ki, 100 il ömür sürmüşdür (1230-1325). Xəstə Qasım isə XVIII əsrdə Cənubi Azərbaycanın Tikmədaş kəndində yaşamış və az ömür sürmüşdür (1720-1779) (6, s.97;194).

Molla Qasım barədə ilk məlumatı Salman Mümtaz vermişdir. O, Şirvanlı Molla Qasımın iki təcnisini və bir gəraylısını «El şairləri» kitabında çap etdirmişdir. Həmin kitabda Xəstə Qasımın da bir neçə şeiri çap olunmuşdur. 70 il sonra folklorşünas Ağalar Mirzənin təşəbbüsü ilə vaxtilə Salman Mümtazın yazıya aldığı şeirlər transliterasiya edilərək, izah və şərhlərlə birgə müasir dövrün geniş oxucu kütləsinə aydın bir dildə çatdırılmışdır.

Tədqiq etdiyimiz nağılı M.Mahmudbəyov iki dəfə dərc etmişdir. İlk öncə SMOMPK-da, bir il sonra isə 1895-ci ildə «Kaspi» qəzetinin 137 №-li sayında (23, s.82).

Haqqında bəhs etdiyimiz mətndə Xəstə Qasım Nəsrullah şahın oğludur. Atası tez vəfat etmiş, Qasım dayısının evində böyümüşdür, Qasım Tikmədaş hökmdarı Əli xanın qızı Mələk Simaya aşiq idi. Lakin Əli xan buna razılıq verməyərək Qasımı zindana saldırır. Qısa girişdən sonra bu nağılda xeyli nəğmə verilmişdir. Müxtəlif həcmli bu 35 nəğmədə həm qəhrəmanın lirik hissləri, həm də başına gələn əhvalatlar təsvir olunmuşdur.

M.Mahmudbəyov öz ənənəsinə sadiq qalaraq Azərbaycan mədəniyyətinə bələd olmayan oxucular üçün bir sıra qeydlər vermişdir. Belə ki, Qasımın təxəllüsünü o «mənəvi cəhətdən şikəst, qəlbi sınıq» kimi izah etmişdir (4, s, 262).

İkinci nəğmədə Qasım Qədr gecəsində eşq badəsi içməyindən, eşq yolunda 4 səma kitabının – Tövrat, İncil, Zəbur və Quranın - onun üzünə açıq olmasından danışır (4, s.263).

Qasımın sazbəndin yanına gəlib saz istəməyi epizodunu diqqətlə oxuduqda iki məqam nəzəri cəlb edir: Xəstə Qasım sazbənddən elə bir saz istəyir ki,

dindirəndə imran dili söyləyə
vəhşi bülbül tək xoş avaz ola (4, s.279)

Sazbənd sadə sazı Qasıma verəndə o, həmin sazı bəyənməyib qaytarır və deyir:

Yamanı – yamana, yaxşını – mərdə
Tərifin edərəm hər düşən yerdə (yenə orada)

Bu şerin ruscaya tərcüməsini verdikdə M.Mahmudbəyov bir sual işarəsi qoymuşdur, Fikrimizcə, burada bir aydın olmayan məqam yoxdur. Bu iki misra «Çörəyi ver çörəkçiyə, bir çörək də üstəlik», yaxud «Zərin qədrini zərgər bilər» atalar sözləri ilə yaxındır.

Tədqiq etdiyimiz mətni rus alimi A.N.Veselovski də araşdırmış və demişdir ki, şeir parçaları bəzən formal şəklində mətnə daxil edilirlər: «o belə dedi»; bu formullar hər hansı bir mənəvi kəlam və ya gülüş doğurmalıdır; çox vaxt şeirlərin məzmunu nəsrdən heç nə ilə seçilmir, lakin çox vaxt nəzmlə nəsr bir-birindən ciddi fərqlənir, və ona baxmayaraq nəsildən nəslə keçirlər (30,s.97)

Xəstə Qasımın haqq aşiqi olmasını deyərkən M.Mahmudbəyov artıq özünün XIII buraxılışda çap etdirdiyi «Aşıq Qərib»ə istinad edir (4,s.266). M.Mahmudbəyovun SMOMPK-da təqdim etdiyi bu mətndə demək olar ki, ən maraqlı, hadisələrin sürətlə cərəyan etdiyi hissə Xəstə Qasımın Ləzgi Əhmədlə görüşüb-deyişməsi, Ləzgi Əhmədi məğlub edərək nəhayət ki, sevdiyi Mələk-Simaya qovuşmasıdır. Burada artıq Qasım Xəstə yox, Ləzgi Əhmədin dili ilə «Dədə Qasım» adlandırılır (4,s.269).

Bu mətnin poetikasına gəldikdə ilk növbədə tez-tez işlənən «qurbanı olduğum», «gözünə döndüyüm» kimi müraciətlər, Qasımın «ayağı bağlanmış şahinə», Mələk Simanın «ceyrana», «təzəcə aya» və s. bənzədilmələri diqqətəlayiqdir.

Bəzi səhv tərcümələr də vardır. Məsələn, Nadir şaha Xəstə Qasım rus çarına müraciət edən kimi «Ваше величество», «Великий государь» deyir (4, s.270). Ləzgi Əhmədə Xəstə Qasım özünü Leylinin oğlu, Məcnunun qardaşı, Şirinin həmtayı, Fərhadın yoldaşı kimi təqdim edir. Sonra bunlar deyişir. Ləzgi Əhmədin dediyi Qıfılbəndləri Xəstə Qasım açır. Xəstə Qasım isə qıfılbənd deyəndə Ləzgi Əhməd onları aça bilmir, mətnin ətəyində də Mahmudbəyov qeyd edir ki, Aşıq Oruc da həmin sualları bilmədiyindən, onlar oxucu üçün də cavabsız qalır (4, s.275).

Xəstə Qasımla Mələk Sima bir-birinə qovuşurlar. Lakin Mələk Sima Qasımın Əli xanı qorxutmaq üçün edam əmrini verdiyinə görə sevgilisindən inciyir. Üzünü Qasıma tərəf çevirmir. Onda Qasım əlinə saz alıb, guya Mələk Simanın qulluqçusu Sənəmə

Gözəllərə yenə gəl ha gəl oldu.
Ay, allı yaşıllı, Sənəm gəl! (4, s.280).

deyərək, əslində isə «sonam, gəl» deyə artıq həyat yoldaşına müraciət edir. Qasımla Mələk Sima barışdıqdan sonra aşiq ona bir şeir deyir və bununla da «Molla Qasım» nağılı bitir.

XIX buraxılışda çap olunan «Molla Qasım» nağılının 35 nəğməsi rusçaya tərcüməsindən sonra kiril qrafikası ilə azərbaycanca da verilmişdir. Həmin şeir-nəğmələr sonradan S.Mümtazın «El şairləri» adlı kitabında da çap olunmuşdur (25, s.131-132; 231-238).

S.Mümtazdan sonra hər iki aşıq haqda söhbət açan prof. M.H.Təhmasib olmuşdur (27, s.139).

Daha sonra prof. M.Qasımlı «Molla Qasım, yoxsa Xəstə Qasım?» adlı məqaləsində vaxtilə M.Mahmudbəyovun buraxdığı səhvi əsaslandırmağa çalışmışdır (26, s.69-79). Buna isə cavab olaraq dos. N.Xəlilov SMOMPK-da haqqında nağıl çap olunduğu, nəhayət, müxtəlif toplularda bir çox şeiri verilən aşığın kim olduğunu araşdırmışdır (24, s.66-100).

O yazır: «Vaxtilə M.Mahmudbəyovun etdiyi səhvi Ə.Axundov davam etdirmişdir. Sonra gələn tədqiqatçılar da o mənbələrə əsaslanaraq yanlış mülahizələr söyləmişlər. ... «Azərbaycan aşıqları və el şairləri» kitabının tərtibçisi Ə.Axundov Molla Qasımın bir neçə şeirini Xəstə Qasımın adına çıxmış, bir neçə şeirini isə heç bu kitaba daxil etməmişdir... (24, s.115-116).

Bu məsələyə tam aydınlığı yuxarıda qeyd etdiyimiz kimi, prof. A.M.Nəbiyev «Azərbaycan aşıq məktəbləri» monoqrafiyasında gətirmişdir. Aşıq məktəblərini, bu məktəblərin mühitlərini, görkəmli nümayəndələrini araşdıran müəllif sübut etmişdir ki, Molla Qasım Xəstə Qasımdan beş əsr öncə yaşayıb yaratmışdır. Yaşadığı ərazi isə başqa-başqa aşıq məktəblərinə məxsus idi. Ərazi baxımından fərqi təkcə coğrafi fərq təşkil etmirdi. Azərbaycanda qədimlərdə yaranmış və bu günədək inkişaf etməkdə olan müxtəlif aşıq məktəblərinin hər birinin özünəməxsus sənətkarlıq xüsusiyyətləri vardır (22, s.97-104; 194-203).

Kökü M.Mahmudbəyov tərəfindən qoyulan, Ə.Axundov və M.Qasımlı tərəfindən davam etdirilən yanlışlığın bir nəticəsi də A.Nəbiyevin yazdığı kimi «Azərbaycan aşıq yaradıcılığının tarixini əvvəllərdə olduğu kimi XIII əsrdən deyil, XVI yüzillikdən başlanması ilə bağlı dəqiqsizliyin davam etməsinə gətirib çıxarmışdır».

Son olaraq deməq istərdik ki, SMOMPK-da çap olunan hər bir folklor nümunəsi nəinki Azərbaycan folklorşünaslığı, həm də Qafqazda yaşayan başqa xalqların mədəniyyəti üçün də zəngin mənbə olmuşdur.

## ƏDƏBİYYAT:

1. СМОМПК, V, выпуск, 1886
2. СМОМПК, IX выпуск, 1890
3. СМОМПК, XIII выпуск, 1892
4. СМОМПК, XIX выпуск, 1894
5. СМОМПК, XLII выпуск, 1912
6. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, II hissə, 2006, Bakı, «Elm», 647 s.
7. Azərbaycan ədəbiyyatı inciləri. İ.Abbaslı. Ön söz, Bakı, «Yazıçı», 1987, 570 s.
8. Əfəndiyev P.Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, «Maarif», 1992, 477 s.
9. Каррыев Б.А. Эпические сказания о Кер-оглы у тюрко-язычных народов, Москва, «Наука», 1968, 256 с.

10. Набиев А.М. Взаимосвязи азербайджанского и узбекского фольклора, Баку, «Язычы», 1986, 287 с.
11. Əfəndiyev P. «Koroğlu» dastanı rus mətbuatında. Azərb SSR EA-nın xəbərləri. İctimai elmlər seriyası, 1958, s.1, s.53-62
12. Koroğlu (V.Xuluflu nəşri - 1929), Bakı, «Elm», 1999, 186 s.
13. Koroğlu, Bakı, «Nurlan», 2003, 418 s.
14. Koroğlu (V.Xuluflu nəşri - 1927), Bakı, «Elm», 2007, 150 s.
15. Nəbiyev A.M. Misri qılıncın oğurlanması, «Elm və həyat», 1970, №6, s.31-32
16. Əzizov E.İ. Söz xəzinəsi. Bakı, «Maarif», 1995, 127 s.
17. Adilov M. Niyə belə deyirik?, Bakı, «Gənclik», 1973, 200 s.
18. G.M.Hüseynov. Ə.Cəfəroğlunun folklorşünaslıq irsi. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya, Bakı, AMEA-nın MEK, 2003, 156 s.
19. Якубова С. Азербайджанское ашыгское сказание «Ашыг Гариб», Баку, 1970, 306 с.
20. Qurbanov Ş.D. Ədəbi dostluq, Bakı, 1970, 200s.
21. Xalisbəyli T. Məhəbbətə xalq abidəsi, Bakı, 1989, 150 s.
22. Nəbiyev A. Azərbaycan aşıq məktəbləri, Bakı, «Nurlan», 2004, 312 s.
23. Əfəndiyev P. Azərbaycan folklorşünaslığı (1920-ci ilə qədər), Bakı, «Maarif», 1994, 153 s.
24. Xəlilov N.Q. Aşıq sənətinin təşəkkülü, Bakı, BDU nəşri, 2003, 120 s.
25. S.Mümtaz, El şairləri, Bakı, «Səda», 2005, 250 s.
26. Qasımlı M. Molla Qasım, yoxsa Xəstə Qasım, AŞXƏDT, IX, 2000, s.69-79
27. M.H.Təhmasib, Nəsimi və xalq poeziyası, «Ədəbiyyat və incəsənət» 11 avqust 1973. // Məmməd Hüseyn Təhmasib. Məqalələr. Bakı, «Elm», 2005, 218 s., s.127-140
28. Azərbaycan xalq dastanları. 5 cilddə, I cild, Bakı, «Çıraq», 2005, 424 s.
29. Рагимова Э.А. История и практика русского перевода азербайджанского народного героического эпоса (на материале «Китаби-Деде Коркуда» и «Кероглу»). Диссертация на соискание ученой степени доктора филологических наук, Баку, 1995, 321 с.

30. Веселовский А. Историческая поэтика. Москва, «Высшая школа», 1989, 400 с.

**Л.Ф.Алекперова**

## Сказки, перекликающиеся с дастанными сюжетами, в сборнике СМОМПК

**Р Е З Ю М Е**

В статье говорится об имеющих место в сборнике СМОМПК – одном из первых изданий азербайджанского фольклора – сказок, перекликающихся с дастанными сюжетами. Здесь исследуются с точки зрения текстологии сказочные варианты таких дастанов, как «Ашыг Гариб», «Асли-Керем», «Молла Касум» и т.д.

**L.F.Alekperova**

## Tales, which has something in common with dastans's subjects in the SMOMPK

**S U M M A R Y**

In the article tells about the tales, which has something in common with dastans's subjects in the SMOMPK – one of the first edition of Azerbaijan folklore. There are researches on the textual point of view so tales variants of dastan's as "Ashiq Qarib", "Asli-Kerem", "Molla Qasim" and etc.